BAKI UNİVERSİTETİNİN XƏBƏRLƏRİ
*№3 Təbiət elmləri seriyası 2014*

UOT 543.73

# FOSFORSAXLAYAN POLİMER SORBENTLƏ $Ni^{2+}$ İONLARININ SORBSİYASININ ÖYRƏNİLMƏSİ

**O.O.BALAYEVA*, A.M.MƏHƏRRƏMOV*, A.A.ƏZİZOV*, M.B.MURADOV**, N.O.BALAYEVA*, R.M.ALOSMANOV***
***Bakı Dövlət Universiteti, Kimya fakültəsi***
*****Bakı Dövlət Universiteti, Fizika fakültəsi***
***ofeliya1989@inbox.ru***

*Təqdim olunan işdə pH-dan, sorbentin miqdarından, sorbsiya müddətindən, $Ni^{2+}$ ionlarının qatılığından asılı olaraq $Ni^{2+}$ ionlarının fosforsaxlayan polimer sorbentlə sulu məhluldan sorbsiyası öyrənilmişdir. Tədqiqatın nəticələrinə əsasən müəyyən edilmişdir ki, sorbentin $Ni^{2+}$ ionlarına görə maksimal udma effektliyi 82.4%-dir və pH-5-də müşahidə olunmuşdur.*

**Açar sözləri**: Fosforsaxlayan polimer sorbent, pH, sorbsiya

Ağır metal ionlarının çirklənmiş sulardan kənarlaşdırılması öndə gedən problemlərdən biridir. Sənaye sularının ağır metal ionları ilə çirklənməsi müxtəlif səbəblərdən baş verir [1]. Çirklənmiş suları belə ionlardan təmizləmək üçün tərkibində funksional qrup saxlayan polimer sorbentlərin tətbiqi geniş yayılmışdır [2]. Nikel ionlarının təsiri nəticəsində insan orqanizmi dəri qıcıqlanmalarına, ağciyərlərin zədələnməsinə, əsəb sisteminin və selikli qişanın dağılmasına məruz qalır [1, 2]. Lakin yüksək sorbsiya tutumlu, ucuz başa gələn, az enerji sərfi ilə sintez olunan sorbentlərin alınması əsas məsələlərdən biridir.

Təqdim olunan işdə sulu məhluldan $Ni^{2+}$ ionlarının sorbsiyasını öyrənmək üçün fosfor saxlayan sintetik nitril kauçukundan istifadə olunmuşdur. Sorbent Rusiyanın Voronej sintetik kauçuk zavodunun istehsalı olan nitril kauçuku əsasında sintez edilmişdir. Tədqiqatın nəticələrinə əsasən sorbentin $Ni^{2+}$ ionlarına görə maksimal sorbsiyası pH-5-də müşahidə olunmuşdur. Müəyyən edilmişdir ki, sorbentin $Ni^{2+}$ ionlarını maksimal udma effektliyi 82.4%-dir. Məhlulda metal ionlarının qatılığı fotokolorimetrik üsulla tədqiq edilmişdir.

## Təcrübi hissə

Göstərilən işdə fosforsaxlayan polimer sorbent sintetik nirtil kauçukunun oksigen iştirakında fosfoxlorlaşdırılmasından alınmışdır. Oksigen iştirakında fosfoxlorlaşdırılmış nitril kauçuku məlum metodika üzrə sintez edilmişdir [3]. Müxtəlif qatılıqlarda $Ni^{2+}$ duz məhlulunu hazırlamaq üçün kimyəvi təmiz $NiSO_4 \cdot 7H_2O$ duzundan istifadə edilmişdir. $Ni^{2+}$ ionunun məhlulda tarazlıq qatılığı ksilen narıncısı boyaq maddəsi məhlulundan istifadə etməklə təyin edilmişdir. Tədqiqat zamanı məhlulun optiki sıxlığı KFK-2 fotokolorimetrdə təyin edilmişdir.

Mühitin pH-ını təyin etmək üçün pH=1 və pH=2 uyğun olaraq 0.1M və 0.01M xlorid turşusu məhlulundan istifadə edilmişdir. pH 3- pH7 intervalındakı məhlullar 0.1M $CH_3COOH$ və 0,1M $CH_3COONH_4$-ın, pH 8 - pH 11 intervalındakı məhlullar isə 0.1M $NH_4OH$ və 0.1M CH3COONH4-ın müxtəlif nisbətlərindən istifadə etməklə hazırlanmışdır. məhlulların pH-ı Mettler Toledo markalı pH-metrdə ölçülmüşdür.

## Nəticələr və onların müzakirəsi

Fosforsaxlayan polimer sorbent heç bir üzvi və qeyri-üzvi həlledicilərdə həll olmayan qara rəngli bərk tozdur.

Optiki sıxlığa əsasən sorbsiya dərəcəsi (R%) (1) düsturu ilə öyrənilmişdir.

Burada: $C_0$- başlanğıc qatılıq, $C_T$- tarazlıq qatılığıdır

Sorbentin metal ionlarını sorbsiya etməsi üçün pH-ın seçilməsi əsas göstəricilərdən biridir.




**Şək. 1.** Sorbsiya dərəcəsinin pH-dan asılılığı

Məhlulda kompleks birləşmənin əmələ gəlməsi bərabər sayda kationların kationitlərə hərəkəti və ion mübadiləsi ilə baş verir. Şəkil 1-dən göründüyü

kimi $Ni^{2+}$ ionlarının fosforsaxlayan polimer sorbentdə sorbsiyasının pH-ı 5-ə bərabərdir. $Ni^{2+}$ ionlarının müxtəlif pH-larda sorbsiyasına nəzər saldıqda görərik ki, daha turş mühitdə (pH<2) sorbsiya dərəcəsi nisbətən aşağıdır. Bu metal iştirakında turş mühitdə akva kompleksin $[Me(H_2O)_n]^{2+}$ əmələ gəlməsi ilə izah olunur [4].

Sorbsiya prosesi əsasən metal ionlarının –P=O qrupları ilə koordinasiya əlaqəsinin nəticəsidir. Lakin bu qruplar, həmçinin hidrogen rabitəsinin yaranmasında protonlar üçün aktiv mərkəzlərdir $–P=O...H^{+}$ və əlavə olaraq aşağı pH-da sorbsiya zamanı polimerin şişmə dərəcəsi də xeyli az qeydə alınmışdır. Məhlulun turşuluğunun azalması ilə pH=2-9 intervalında ionların sorbsiyası tədricən artmışdır. Müəyyən həddə kimi maksimum olmuş, sonra isə azalmışdır. pH-ın bu intervalında ion koordinasiya, ion qarşılıqlı təsir və hissəciklərin hidrokompleksə keçməsi nəticəsində ($[Me(OH)(H_2O)_{n-1}]^{+}$) sorbsiya prosesi getmişdir [4]. Ancaq onu da qeyd etmək lazımdır ki, pH≥3 asetat-ammonium buferlərindən istifadə olunduğu üçün müxtəlif quruluşda və müxtəlif stabillikdə asetat və ammonium komplekslərinin yaranması da mümkündür [5].

Ədəbiyyat araşdırmalarına görə ammonium kompleksinin stabilləşmə sabitinin qiyməti asetat kompleksinin stabilləşmə sabitinin qiymətindən çox böyükdür. Bu da bizə imkan verir ki, onların təcrübə aparılan məhlulda əmələ gəlməsini nəzərə almayaq [6]. Odur ki, pH≥3-də $Ni^{2+}$ ionları məhlulda akva, hidrokso və ammonium $[Me(NH_3)^{2+}]$ komplekslərinin əmələ gəlməsində iştirak edir. Bu komplekslərin nisbəti müxtəlif pH-larda müxtəlifdir. Metal ionlarının sorbsiyasında pH-ın qiyməti $[Me(NH_3)^{2+}]$ kompleksinin məhlulda əmələ gəlməsinin üstünlük təşkil etdiyi hala uyğun gəlir. pH-ın qiyməti artdıqca məhlulda onların hissələri azalır və qələvi mühitdə sorbsiyanın azalmasına səbəb olur. Beləliklə, göstərilən təcrübədə $Ni^{2+}$ ionlarının sorbsiyasının pH-ı 5 təyin olunmuşdur. pH-ın yüksək qiymətlərində polimer sorbentin (FPS) nisbətən daha çox şişməsi ilə əlaqədar sorbsiya aşağı olmuşdur.

Qatılıqdan asılı olaraq sorbentin sorbsiya tutumu hesablanmış və tarazlıq qatılığı müəyyən edilmişdir. Qrafikdən göründüyü kimi 1M, $8\times10^{-1}$ M, $6\times10^{-1}$ M, $5\times10^{-1}$ M qatılıqlı məhlullarda sorbsiya axıra kimi getmişdir və sorbsiyanın maksimal həddi bu qatılıqlarda qeyd olunmuşdur (şəkil 2). Sorbsiya tutumu (2) düsturu ilə hesablanmışdır:

Burada, $C_0$- başlanğıc qatılıq, $C_T$- tarazlıq qatılığı, V- məhlulun həcmi, g- sorbentin kütləsidir.




**Şək. 2.** Sorbsiya tutumunun tarazlıq qatılığından asılılığı

Sorbentin kütləsinə görə hesablamaları nəzərə alaraq, başlanğıc qatılıq $C_0$=23mmol/l olmuşdur.




**Şək. 3.** Sorbsiya dərəcəsinin sorbentin kütləsindən asılılığı

Təyinatın nəticələrinə görə sorbentin kütləsi artdıqca sorbsiya dərəcəsi də artır və müəyyən miqdarından (0,2q) sonra tarazlıq yaranır. Nəticələr şəkil 3-də öz əksini tapmışdır.

Sorbsiyanı tarazlıq vəziyyətinə gətirmək müxtəlif sorbentlərin təbiətindən asılı olaraq bir qədər uzun müddət tələb edir. Təcrübə otaq temperaturunda qoyulmuşdur. Təcrübə qoyulduqdan 8 saat sonra sorbsiya tarazlıq vəziyyətinə gəlmişdir (şəkil 4).




**Şək. 4.** Sorbsiya dərəcəsinin zamandan asılılığı

## ƏDƏBİYYAT


1. Oliver M.A. Soil and Human Health: A Review.// Eur. J. Soil Sci. 1997, No 48, p. 573–592.
2. Mehmet E. A., Sukru D., Celalettin O., Mustafa K. Heavy Metal Adsorption by Modified Oak sawdust: Thermodynamics and Kinetics. //Journal of Hazardous Materials. 2007, № 141, P.77–85.
3. Балаева О.О., Балаева Н.О., Азизов А.А., Алосманов Р.М. Окислительное хлорфосфорилирование бутадиен-нитрильного каучука. //Молодой учёный. 2012. No5(40), с.118-121.
4. Турова Н.Я. Неорганическая химия в таблицах. М., 1997, 105 с.
5. R.M.Alosmanov, A.A.Azizov, A.M.Maharramov, I.A.Bunyad-Zadeh. //Int. Environmental Application and Science. 2011, vol. 6(3), p. 448-451.
6. Лурье Ю.Ю. Справочник по аналитической химии. М.: Химия, 1989, 448 с.


## ИССЛЕДОВАНИЕ СОРБЦИИ ИОНОВ $NI^{2+}$ ФОСФОРСОДЕРЖАЩИМ ПОЛИМЕРНЫМ СОРБЕНТОМ

**О.О.БАЛАЕВА, А.М. МАГЕРРАМОВ, А.А.АЗИЗОВ, М.Б.МУРАДОВ, Н.О. БАЛАЕВА, Р.М.АЛОСМАНОВ**

**РЕЗЮМЕ**

В настоящей работе была изучена зависимость сорбции ионов $Ni^{2+}$ в водном растворе на сорбенте фосфорсодержащего полимера от pH, от массы сорбента, от времени протекания сорбции, от концентрации ионов $Ni^{2+}$. Результаты показывают, что максимальный эффект поглощения сорбентом ионов $Ni^{2+}$ равно 82,4% при pH 5.

**Ключевые слова:** фосфорсодержащий полимерный сорбент, pH, сорбция

## THE STUDY OF SORPTION OF $NI^{2+}$ IONS BY PHOSPHORUS CONTAINING POLYMER SORBENT

**O.O.BALAYEVA, A.M.MAHARRAMOV, A.A.AZİZOV, M.B.MURADOV, N.O.BALAYEVA, R.M.ALOSMANOV**

### SUMMARY

The paper studies the adsorption of $Ni^{2+}$ ions from aqueous solutions by phosphorus containing polymer sorbent in the dependence of the effects of pH, $Ni^{2+}$ ion concentration, mass of adsorbent, and the contact time. The results demonstrate that, the maximum removal efficiency was 82.4% for $Ni^{2+}$ ions at pH 5.

**Key words:** phosphorus containing polymer sorbent, pH, sorption

*Redaksiyaya daxil oldu: 28.10.2014-cü il*
*Çapa imzalandı: 05.11.2014-cü il*